DÜNYA XƏBƏRLƏRİ

Rusiya Kiyev yaxınlığında yaşayış binasını vurub, azı 11 nəfər ölüb

Noyabr 23, 2026



Dımer qəsəbəsi

Noyabrın 22-də səhər Rusiyanın Kiyev vilayətində yaşayış binasına endirdiyi dron zərbəsindən azı 11 nəfərin həlak olduğu bildirilir. Noyabrın 23-ü Kiyev vilayətində matəm günü elan edilib.

Kiyevdən təxminən 45 kilometr şimalda yerləşən Dımer qəsəbəsində azı 130 xilasedicinin çalışdığı bildirilib. Havanın temperaturu sıfır dərəcədən bir qədər yuxarı olub.

Vişneve şəhərində isə Rusiyanın dronu supermarketə zərbə endirib. Nəticədə iki nəfər ölüb, səkkiz nəfər yaralanıb.

Dneprə Rusiya dronlarının hücumundan bir qadın həlak olub, bir neçə nəfər xəsarət alıb. Slovyanska endirilən zərbə nəticəsində isə iki nəfər ölüb.

Ukrayna hakimiyyətinin məlumatına görə, Rusiyanın dronları və ya raketləri Dnepropetrovsk vilayətində elektrik yarımstansiyasını da vurub.

Rusiya artıq beşinci ildir Ukraynaya qarşı işğalçı müharibəni davam etdirir.

Rusiya qüvvələri Ukraynanın Donbas bölgəsində kiçik ərazilər ələ keçirsələr də, çox böyük itkilər verirlər. Bir çox hesablamalara görə, Rusiya ordusunun ölən və yaralanan hərbçilərinin sayı 1.6 milyonu ötüb.

Ukrayna tərəfdən isə 500 mindən çox hərbçinin öldüyü, yaxud yaralandığı bildirilir.



Benqazi hərbi dəniz bazasında Rusiyanın "Merkuri" korvetində yanğın.

Rusiya gəmiləri hədəfdə

Kiyev Rusiyanın şimal-qərbində yerləşən, hərbi dəniz limanlarının və neft ixrac terminallarının olduğu Leninqrad vilayətindəki obyektləri dronlarla hədəfə alıb.

Noyabrın 21-də Baltik dənizində üzən Rusiya yük gəmisinin Ukrayna dronunun zərbəsindən alovlandığı bildirilir.

Gəmi Rusiyanın Baltik dənizi sahilində yerləşən Kalininqrad anklavına doğru hərəkət edirmiş.

Rusiyanın daha bir gəmisi Liviya sahillərində vurulub. Liviyanın şərqindəki hakimiyyət orqanları noyabrın 22-də bəyan ediblər ki, Rusiyanın Benqazi limanında dayanmış, idarəolunan raketlərlə təchiz edilmiş hərbi korvet şübhəli dron hücumu ilə məhv edilib. Hücum partlayışa və yanğına səbəb olsa da, insan tələfatı qeydə alınmayıb.

Hücuma görə məsuliyyəti dərhal üzərinə götürən olmayıb. Liviyanın şərq administrasiyası zərbənin arxasında kimin dayandığını açıqlamayıb, ancaq Liviyanın Rusiya-Ukrayna müharibəsində tərəf olmadığını bildirib.

Ukrayna dronları Rusiyada üç neft müəssisəsinə hücum edib

Noyabrın 23-nə keçən gecə Ukrayna dronları Rusiyada üç neft müəssisəsinə zərbə endirib. Bunlar Tatarıstandakı "Kaleykino" neft nəqletmə stansiyası, Rostov vilayətindəki Novoşaxtinsk neft emalı zavodu və Perm diyarındakı "Lukoyl-Permnefteorqsintez" zavodudur. Məlumatı Ukraynanın monitorinq kanalları yayıb.

Tatarıstan rəhbərinin mətbuat xidməti Ukrayna dronlarının Almetyevsk yaxınlığındakı neft saxlama çənlərinə hücum etdiyini təsdiqləyib. "Astra" Telegram kanalı sosial şəbəkələrdə yayılan videoları araşdıraraq "Kaleykino" neft nəqletmə stansiyasında yanğın baş verdiyi qənaətinə gəlib.

Rostov vilayətinin qubernatoru **Yuri Slyusar** bölgəyə hücumu təsdiqləsə də, Novoşaxtinsk neft məhsulları zavodunun vurulduğunu birbaşa bildirməyib. O yazıb ki, Krasnosulinsk rayonunda "dron qalıqlarının düşməsi" nəticəsində yanğın başlayıb. Zavod məhz bu rayonda yerləşir. Qubernator gecə ərzində vilayət üzərində 80 dronun vurulduğunu açıqlayıb.

Rusiya Müdafiə Nazirliyi isə ötən gecə bir sıra vilayətlər üzərində Ukraynaya məxsus 192 dronun zərərsizləşdirildiyini bəyan edib.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur